# 60 YAŞIN İŞIĞI

Ancaq nədəndirsə, öz işığın öz gözünü qamaşdırmır. Görəsən, hamı beləmi olur, ya da təkcə sən beləsən?! Nə bilim, vallah. Bircə onu bilirəm ki, bəşərin ən böyük arzusu və elə ən böyük problemi də yaşamaq, ahıl dövrün, qocalıq çağlarının işığına qovuşmaqdır. Hərdən düşünürəm ki, bəlkə də zaman gələcək, dünyanın ən mötəbər mükafatını daha çox yaşayanlara verəcəklər…

Fəqət, yaşamaq təkcə uzun ömürlü olmaq deyil ha. Həyatın mənası illərlə yox, əməllərlə ölçülür. Bənövşədən az yaşayan nə var ki, dünyada. Neynirsən, digəl dilədişə düşməyinə bax. Di gəl, şəninə qoşulmuş nəğmələri oxu…

Bunlar hardansa ağlıma gəldi. Elə-belə dedim. Əslində sənə heç kəs 60 yaş verməz. Fikir verməmisən olsun ki: hərdən saçına-sifətinə düşən ömür işığı da çaşbaş qalır elə bil, özünü itirmiş kimi gözə dəyir sanki…

Gəlsənə, bir həmsöhbət olaq. Mənə də ayaq yeri ver, illərin 60-cı pilləsində nəfəsimizi dərib, bir geriyə boylanaq. Görək nə idi o illər, niyə belə gözümüzü açıb yumanacan çəkilib getdi. Nə qoydu bizlərə, bu gün keçilmiş yolun ayaq izlərindən nə oxumaq, nə yazmaq olar…

Soltan Həsənov 1946-cı il fevral ayının 12-də Bərdədə anadan olub. Əslən Ağcabədinin Gəlbədin kəndindəndir. Babası Məşədi Hüsü kişi kəndin sayılan, seçilən adamlarından olub. Təqribən 100 il əvvəl bərdəli Kəlbəli xan himayəsində olan Hüseynbəyli kəndini ona bağışlayır. Məşədi Hüsü kişi də dostunun hədiyyəsini daha da urvatlandırmaq üçün ailəsini Hüseynbəyliyə köçürür. Maraqlıdır ki, Soltan Həsənov söz düşəndə nə Bərdənin adını çəkir, nə Ağcabədinin, mən Qarabağlıyam deyir, köklü- kökməcli Qarabağlı!

Müşahidə edənlər bu qənaətdədirlər ki, adamlar əlli yaşınadək daha çox gələcəyindən, gələcəkdə görəcəyi işlərdən, əlli yaşından sonra isə, keçmişdən, keçmişdə gördükləri işlərdən danışır. Heç Soltan müəllim də istisna deyil. 1965-ci ildə Bərdə şəhər 1 saylı orta məktəbi, 1969-cu ildə Gəncədə Dövlət Pedaqoji İnstitutunu bitirib. Bir il Zaqatalanın Muxax kəndində uşaqlara tariximizi öyrədib. Sonra bir neçə il o vaxt Bərdədə çıxan «Kommunizm yolu» qəzetində və rayon icraiyyə komitəsində şöbə müdiri vəzifələrində çalışıb. 1982-ci ildən Bərdə Rayon Mədəniyyət Şöbəsinin müdiridir.

O illərdən qalma şəxsi arxiv sənədləri Soltan müəllim üçün ən əziz yadigarlardır. Vaxt tapan kimi özünü verir köhnə albomların, saralmış, qat kəsmiş məktubların, kağız-kuğuzun arasına.

Soltanı mənim kimi tanıyan az olar. Həyatımızın son 36 ilini qarşılıqlı iş şəraitində keçirmişik. İllərlə eyni təşkilatda, hətta eyni otaqda işləmişik. O da yadıma düşür ki, o vaxt rayon partiya komitəsinin birinci katibi işləyən Rüstəm Səfərəliyev onu mədəniyyət şöbəsinə müdir təklif edəndə hamımız həyəcan keçirmişdik: «Görəsən, bu işin öhdəsindən gələ biləcəkmi? Vəzifə taxtından yarımçıq düşməyəcək ki?» (o vaxtlar belə faktlar çox olurdu)

Görünür, narahatlığımız əbəs imiş. Soltan Həsənov artıq 23 ildir ki, həmin vəzifəni ləyaqətlə aparır.

Bir dəfə təsadüfən soruşdum:

-Deyirsən ki, 23 il bir igidin ömrüdür. Sözüm yox, ancaq gəl məsələyə bu tərəfdən baxaq: heç fikirləşibsən ki, bu 23 ildə neyləmisən, nə iş görmüsən?

Tutulan kimi oldu:

-Düz deyirsən, vallah. Bu çağacan heç fərqinə varmamışam.

- İndi məqamdı elə. Gəl bir haqq-hesab aparaq.

Başladı yaddaşını varaqlamağa:

-Bax, onda cəmi bir musiqi məktəbi vardı, indi 6 olub. Ən azı 100 klub və kitabxananın açılış lentini özüm kəsmişəm. Yaxşı yadımdadı: onda şöbənin 300 nəfər işçisi vardı. İndi 1300 nəfərdi. 1000 nəfər də işçilərin sayı artıb…

-Sən axı köhnə qəzetçisən. Mətbuatda faktları belə sadalamırlar.

İkimiz də cavanlıqda kim bilir, nə qədər işlətdiyimiz bu cümləni xatırladıq. Ovqatımız əməlli-başlı dəyişdi.

-Mən elə yenə mətbuata bağlı adamam-nəhayət, keçmiş həmkarım fikrimi tamamladı. - Artıq üç ildir ki, «Mədəni maarif işi» jurnalına abunə yazılışında şöbəmiz liderliyi əldən vermir. Respublikada yeganə mədəniyyət şöbə müdiriyəm ki, həmin jurnalın redaksiya heyətinin üzvüyəm.

Nə fikirləşdisə, söhbətin axarını bir balaca yana tutdu:

-Heç bilirsən bu illər ərzində Bərdədə kimlər qonağım olub: Arif Babayev, Yaqub Məmmədov, Əbülfət Əliyev, Sara Qədimova, Ramiz Quliyev…

Bunlar elə-belə adamlar deyil e,- yenə başladı sadalamağa- Səkinə İsmayılova, Mələkxanım Əyyubova, Ağaxan Abdullayev, Hacıbaba Bağırov, Afaq Bəşirqızı, Arif Quliyev…

-Ta respublikada aktyor, müğənni qalmadı ki!- sözünü kəsməsəydim, bəlkə sıra xeyli uzanacaqdı.

-Süleyman Ələsgərov, Şahmar Əkbərzadə, Famil Mehdi… bilirsən, belə şəxsiyyətlərin Bərdəyə hər gəlişi rayonun mədəni həyatında bir hadisəydi e!…

Etiraf olunmalıdır ki, Bərdə doğrudan da qonaqlı-qaralı şəhərdir. Ümummilli liderimiz Hedər Əliyev 14 dəfə





***İllər pillələr kimidir. Yaşa dolduqca bu pillələrlə qalxır adam. Və qalxdıqca da ucalır. O ucalıqdan isə dünya daha geniş görünür.***

***Ucalığın başqa bir əlaməti də var. Uca, adətən dağlar olur. O dağlar ki, günəş kipriyini qaldıranda ilk işartısı onlara düşür. O dağlar ki, elə qar da ilk dəfə yaylığını onların üstünə sərir. Və burdan başlayır yer üzünü öz rənginə boyamağa. Atalar-balalar da başlarını yuxarı qaldırıb deyirlər: «O dağa yağan qar bir gün də bu dağa yağacaq.»***

***Qarın da, günəşin də bir simvolu işıqdır. İnsan da yaşa dolduqca işıqlanır. Deyəsən, əvvəl başdan başlayır, saça düşür bu işıq. Sonra üzə, qaşa, gözə enir.***

***Bu günlər Soltan Həsənov da 60 yaşın işığındadır.***

***Yaşın mübarək, işığın mübarək, Soltan müəllim!***

***İşığın baxanların gözünü qamaşdırır , qardaş. Yəqin buna görədir ki, yanından ötənlərin heç də hamısı üzünə zəndlə baxa bilmir.***

Bərdədə olub. Ölkə prezidenti cənab İlham Əliyev də bir neçə dəfə səfərini bu yerlərdən salıb.

Tikilir, gözəlləşir, abadlaşır Bərdə. Küçə-küçə, hissə-hissə, məhəllə-məhəllə yenidən qurulur şəhər. Müasirləşir, dünya standartlarına uyğunlaşır. Təzə tikilən binalar ən mükəmməl, orijinal, gözəxoş layihələri ehtiva edir özündə.

-Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı mədəniyyətimizin də yüksəlişinə xidmət edir. -Soltan müəllim əlini yenidən qurulmuş yaraşıqlı küçə boyu irəli uzadır - gör necə də gözəldir?! Mədəniyyət də elə bu gözəllikdədir də. Bərdəlilər Elman müəllimi bilirsən niyə belə çox istəyirlər?! Başçımızı deyirəm Ona görə ki, bu insan qurmağın, yaratmağın ustasıdır. Son illər gördüyü abadlıq işləri ilə Bərdənin tarixinə düşüb.

-Yəqin bilirsən ki, son vaxtlar mindən çox təzə iş yerləri açılıb rayonda.

-Bilirəm, əlbəttə, bilirəm. Son illər bütövlükdə respublikanın mədəni həyatında böyük inkişaf var. Hörmətli prezidentimizin məlum sərəncamından sonra yeni qrafiklə çap olunmuş 70 min nüsxə kitab almışıq. Hamısı da ünvanlı. Respublikada Muğam Mərkəzinin yaradılmasına hazırlıq görülür. Bu həm də o deməkdir ki, yaxın illərdə ən azından Qarabağın mərkəzi olaraq Bərdədə də belə bir mədəniyyət ocağının açılması mümkün olacaq. İndiki halda şəhərimizdə ulu öndərin adını daşıyan muzey tikilib. Tarix-diyarşünaslıq muzeyi üçün də bina hazırlanır.

Söhbətin bu məqamında Soltan diqqəti maraq doğuran bir təklif üzərində cəmləşdirir:

-Məlumdur ki, Bərdə Alban dövlətinin baş şəhəri, paytaxtı olub. Nə yaxşı olardı ki, burada Alban dövlətinin tarixini əks etdirən muzey də aça biləydik…

Beləcə, şöhrət arzuların, istəklərin, gələcəkdə görüləsi işlərin müstəvisinə keçir. Arzular, istəklər isə çoxdur.

-Bilirsən nə düşünürəm? -Soltan qayğılı görkəm alır, -şəhərdəki 1000 yerlik mədəniyyət sarayının təmiri ləngiyir nəsə. Orda təmir aparılsaydı, dram teatrı aça bilərdik. Ötən əsrin 40-cı illərində Bərdədə Dövlət Dram Teatrı olub. Bəs indi niyə olmasın? Halbuki indi əhali o dövrdəkindən bir neçə dəfə çoxdur. Digər imkanlar da həmçinin. Mən hələ onu demirəm ki, Bərdədə Dövlət Flarmoniyası da açmaq olar. Qarabağ Dövlət Flarmoniyası da…

-Dildə demək asandır…-ürəyimdən keçənləri pərdələyə bilmədim.

-Niyə elə danışırsan?!-Soltan müəllim həyəcanlandı deyəsən. -Görünür sən bizim naziri dərindən tanımırsan. Nə desən eləmək olar onnan. Mədəniyyətimizin, incəsənətimizin fədaisidir o.

… 60 il zirvə deyil, olsa-olsa bir aşırımdır ömürdə. Hələ qarşıda 70-ci, 80-ci, 90-cı aşırımlar var. Zirvə də yəqin ki, ondan sonra başlanır. İllərin 50-dən, 60-dan sonrası ona görə qiymətlidir ki, o yaşda insan daha xeyirxah olur. Cavanlıqda qazandıqları günahı yumağa çalışır, bu çağacan edə bilmədiklərinə nail olmağa can atır, «əmi», «dayı», «baba» kəlmələri eşidir. Hər kəs səndən məsləhət, xeyir-dua umur. Bir məclisə girəndə ayağına duranların sayı artır, qolundan tuturlar, yer göstərirlər…

Ahıllığın, qocalığın payız gözəlliyi, xəzəl pıçıltısı, bağ-bağat, mer-meyvə tamı var.

Günlərin tamlı, bağ-bağatlı, mer-meyvəli olsun. Ömrünün zirvəsinə çıxasan…

*Xasay* **MEHDİYEV**

***Redaksiyadan:*** ***Soltan müəllimin adına layiq bu səmimi, duzlu yazıya əlavə etməyə bir sözümüz yoxdur. Axı hər şey yerində deyilib, dəqiq göstərilib. Sonda biz də yaradıcı kollektivimiz və çoxsaylı oxucularımız adından yubilyarı ürəkdən təbrik edir, ona uzun ömür, möhkəm can sağlığı, həmişə ön cərgədə olmağı arzulayırıq. Bütün arzuların çin olsun, Soltan müəllim!***

***Xasay Mehdiyev ailədən, oğul-uşaqdan, nəvələrdən söhbət açmayıb. Fürsətdən istifadə edib üzümüzü onlara tuturuq. Soltan müəllimdə əxz etməli keyfiyyətlər çoxdur: "O kişinin qədrini bilin, onu sevin, onunla fəxr edin, qürur duyun. Çünki o yaxşı babadır, qayğıkeş atadır və nəhayət, səriştəli rəhbər, gözəl ziyalıdır…"***